**UOT 73.**

**Qalib Qasımov**
**Azərbaycan Dövlət Rəsm Qalereyası**
**direktor**
**E-mail:qalibzod@gmail.com**

# SƏNƏT ƏSƏRLƏRİNİN TƏHLİL VƏ TƏNQİDİ HAQDA

**Xülasə**: Sənət əsərlərinin ifa tərzinin, janrının və texnikasının mürəkkəbləşdiyi müasir dünyada qloballaşma və cəmiyyətin sosial strukturlarında dəyişikliklər baş verir, incəsənətin ümumi mahiyyəti də hər yerdə dəyişir. Sənətin tənqidi və təhlili ilə bağlı mətbuatda çıxan nəşrləri və bəzi akademik əsərləri nəzərdən keçirərkən, tənqidin əhəmiyyətinə önəm verilsə də, bədii əsəri tam dərk etmək, onu yazılı və şifahi şəkildə izah etmək üçün yetərincə bacarıq görə bilmirik. Bunun əsas səbəblərindən biri sənət əsərlərinin qiymətləndirilməsi və təhlili üçün daim yenilənən mühitin və ya platformaların olmaması ola bilər. Bu məqalə əsasında çıxış və məqalələr yazmağın, təkcə sənət tarixi və nəzəriyyəsi sahəsində deyil, həm də tənqid və təhlil məsələləri ilə bağlı tədqiqatların (xüsusən də Azərbaycan dilində) aparılmasının vacibliyini bir daha vurğulamaq istəmişik.
**Açar sözlər**: tənqid, hermenevtik, fənlərarası, şərh, təsvir, mühakimə

İncəsənət əsərini necə anlayaq? Bu sual bir çoxları üçün tarixin uzun zamanlarının burulğanında özünə həmişəlik yer qazanmışdır. Çünki insan onu əhatə edən gerçəklikləri dərk etmək istəyini hər zaman qəlbində daşıyır. Ən qədim çağların mağara rəsmlərindən başlayaraq, zəmanəmizin rəqəmsal (digital) incəsənətinə qədər böyük yol keçmiş sənət onu yaradan rəssamın daxili və zahiri dünyasının birgə maddiləşməsilə ortaya çıxan məhsullar bütünüdür. İncəsənət əsəri adlandırdığımız hər bir belə məhsul rəssamın bəlli fikir və düşüncələrinin, hiss və həyəcanının, sevinc və kədər kimi duyğularının üzə çıxması ilə təsvir müstəvisinə gələn tam bir bütündür. Bu əsərlər onları yaradanın şəxsiyyətini, mənəvi aləmini, kimliyini əks etdirməsi ilə bərabər dövrün meydana gətirmiş olduğu məxsusi xüsusiyyətləri də ortaya qoymaqdadır. Ona görə də bəzən sənət əsərlərinə bir də cəmiyyətin bütün özəlliklərini əks etdirən güzgü kimi də baxmaq olar. Təsadüfi deyil ki, Platon sənəti bir təqlid, kölgə adlandırırdı. Yəni ideyanın, həqiqətin yansıması olan sənət doğru və yanlışın, hətta var olub, olmamağın güzgüsüdür. Platon bir rəssamın yaratdığı əsərində kölgənin kölgəsini göstərdiyini düşünür və qeyd edirdi ki, sənət insanlara əyləncəli təsir göstərir və sənətin həzzini başqa bir hərəkətdən almaq mümkün deyil. F.Nitşse "Musiqinin ruhundan faciənin doğuşu" adlı kitabında yunan dramına əsaslanan sənət və fəlsəfəni dərindən araşdırmış və insanın təməlinin xəyal və mahnıdan qaynaqlandığını qeyd

etmişdir. F.Nitşseyə görə Dionis və Apollon adlı iki sənət tanrısı vardır ki, onlardan da birincisi musiqini, ikincisi isə heykəli simvolizə edir. Musiqi ilə insan özünü yenidən tapır, heykələ verilmiş forma ilə inkişaf edərək mükəmməl forma səviyyəsinə yüksəlir. Z.Freydə görə isə "biz"dən bəhs edən elm və "mən"dən danışan sənət "insana aparan ən qısa yoldur". Psixoanalitik baxımından o, sənəti yaradıcılıq və yeni həllər tapmaq bacarığı, inandırıcı və mənalı xüsusiyyətlərə malik xəyali məhsullar yaratmaq qabiliyyəti kimi xarakterizə edirdi.

Sənət əsərlərini doğru anlamaq üçün incəsənətin təməl tərkibini (komponentlərini), keyfiyyət və mahiyyətini ayırd eləmək, onun tərifini vermək, ən əsası da təhlil etmək lazımdır. Bunun üçün incəsənətdəki dəyərlərin qarışıqlığı, sənət tənqidinin doğru aparılması, incəsənətin digər sahələrlə əlaqələrini də bilmək gərəkdir. Bu işin təməlində incəsənət tarixi, mifoloji, ikonoqrafik təhlil, estetik tənqid və elmi yanaşma dayanır.

S.D.Petrenko yazır: "Yarandığı gündən bəri sənət nəzəriyyəsi bir neçə metodoloji yanaşma təklif etmişdir: formal üslub metodu, "Vyana məktəbi", ikonoqrafiya, strukturalizm, ikonologiya və sosioloji yanaşma, semiotika" [2]. Göründüyü kimi, sənət tarixində təhlil üçün müxtəlif yanaşma, metod və bədii sistemlər təklif olunub. Bu metodların hər biri haqda ayrıca danışmaq olar.

Lakin incəsənətin əsrlərlə keçdiyi tarixi yolda, xüsusən də 20-ci əsrin və 21-ci yüzilliyin ötən dövrünün çoxsaylı avanqard sənət qruplarının, modernizm sənətinin üslublarını və üslub uyğunsuzluqlarının izahını vermək üçün universal yanaşmaların, formal sistem və məktəblərin inkişafı qaçılmaz olmuşdur. Sənətşünaslığın qarşısında duran vəzifələrdən biri də bütün bu mürəkkəb üsul, metod və yanaşmalarla bərabər incəsənətin sadə istehlakçısına sənət əsərini doğru tənqid və təhlil etməyi izah etməkdən ibarət olmalıdır. Burada iki əsas istilahın - tənqid və təhlil üzərində düşünməyə dəyər.

Bir qədər tənqid anlayışı haqda danışaq. "Tənqid anlayışının bir çox dillərdə istifadəsi və törəmiş halı var. Yunanca "kritike" sözündən alındığı və mühakimə anlamına gələn "krinein" sözündən törədiyi söylənməkdədir. İngiliscə "critigue", Osmanlıcada "Tenkid və intikat" sözlərindən götürülmüşdür [4]. Azərbaycanca "tənqid" sözündən geniş şəkildə istifadə olunur. Konseptual baxımdan tənqid özündə bir çox sahəni birləşdirməsinə baxmayaraq, məna və qavram olaraq əlaqələri bir-birindən fərqlidir. Məna baxımından bir sənət əsərini tənqid etmək anlamına gəlsə də, konseptual baxımdan şəkil üzərində bir çox bilgi və mədəni analizlərin aparılması və şərh verilə bilməsinə deyilir.

Sənət tənqidi bir sənət əsərini tənqid etmək, o əsərə qarşı həssas bir əks reaksiya vermə müddəti olaraq qəbul oluna bilər. Bir çoxları tənqidi yanlış olaraq sadəcə, əsərdə nöqsan axtarmaq işi kimi başa düşür. Halbuki, bu, belə deyil. Hamımız bilirik ki, rəssamlar öz əsərini yaradır, təsvir müstəvisi üzərində fikrini izah edir, ötürmək istədiyi ismarıcı verir və çəkilib kənarda durur. Geridə qalanı

isə sənət xiridarları və mütəxəssislərin öhdəsinə düşür. Zənnimcə V.Özsoy haqlı olaraq qeyd edir ki, ‚Sənət tənqidi bir sənət əsərinə bütün detalları ilə cəmiyyət konteksti içində baxmaq, müəyyənləşdirmək, təhlil etmək, ona şərh vermək və mühakimə dövrüdür" [6].

İncəsənət inkişaf etdiyi kimi zamanla sənət tənqidinin özü də inkişaf edir, yeni üsul və metodoloji yanaşmalar, çeşidlər meydana çıxır. Dr. Evren Daşdağ sənət tənqidi çeşidlərinin əsasən dörd yerə ayrılmasından bəhs edir: Mətbuat tənqidi; Pedaqoji tənqid; Akademik tənqid; Populyar tənqid [3].

Müasir sənət pedaqoqlarından olan, amerikan bəstəkarı və musiqi nəzəriyyəçisi Morton Feldman (1926-1987) özünəməxsus bir tənqid üsulu irəli sürmüşdür. Ona görə "iki cür sənət tənqidi vardır. Subyektiv və kontekst tənqidi. Subyektiv tənqid, yəni intrinsie (əslində olan, yaradılışdan var olan-daxili) tənqidində diqqətlər tək bir sənət əsərinə gözlənilən və hiss olunan bilikdən məna çıxaran xüsusiyyətlər üzərində cəmlənir. Kontekst içində, yəni - extrinsie (xarici, zahiri) tənqiddə isə sənət əsərinin yaradıldığı sosio-tarixi zamanlara bağlı bilikləri əsasında araşdırma üsulundan bəhs olunur" [5].

Sənət tənqidçiləri Ervin Panofski tərəfindən inkişaf etdirilən metodlara da müraciət edirlər. O, incəsənət əsərini üç ayrı fazada təhlil olunan mənalandırmanın vacibliyini vurğulamışdır. Təbii məna; Başa düşülməli məna; Əsl və məzmun mənalandırılması.

E.A.Buketov adına Qaraqanda Dövlət Universitetinin Təsviri sənət və dizayn kafedrasının professoru L.R.Zolotaryeva özünün "Sənət əsərlərinin təsviri və təhlili-estetik, incəsənət və pedaqoji alətlər" adlı məqaləsində [1] incəsənət əsərlərinin təhlili üçün metodoloji ardıcıllıqları dəqiq təsvir etmiş, bir sənət əsərinin təsviri və təhlilində istifadə olunan estetik, sənətşünaslıq və pedaqoji vasitələrə diqqəti cəlb etmişdir. Larisa Romanovnanın məqaləsində qeyd olunan tematik plana incəsənətin estetik nəzəriyyəsi, morfologiyası, plastik sənətlərin spesifik xüsusiyyətləri, semiotika və hermenevtikası (təhlil və təsvir kontekstində), bədii mətnin təhlilinin metodoloji əsasları, sənətin faktoqrafik öyrənilməsi, sənət əsərinin emosional-estetik qiymətləndirilməsi ilə bağlı məsələlər daxil edilmişdir.

Hazırda sənət tənqidçiləri və ya sənətşünaslar arasında aktual olan bir sual da ortaya çıxır - mövcud metodoloji yanaşmalardan məhz hansını zəmanəmizin vizual sənətlərinin öyrənilməsində əsas götürmək, məhsuldar hesab eləmək olar?

Bəziləri postmodernizmin nümayəndələrinin əsərlərinin çoxsaylı şərhləri kimi pedaqogikada əsaslandırılan hermenvtik (qədim yunanca "təfsir sənəti" sözündəndir) metodu təklif edirlər. Çünki bu metod əksər hallarda ziddiyyətli şərhlərə yönəldilmiş, müəyyən dərəcədə də qeyri-klassik sənət anlayışları ilə əlaqələndirilə bilir. Bundan başqa ən çox istifadə olunan metodlardan biri sinergetik (sinergetika - qədim yunan dilindən συν- "uyğunluq" və activityον – "fəa-

liyyət" mənasına malik bir ön sözdəndir) fənlərarası yanaşma metodudur. Elmi tədqiqat məntiqinə görə bu tədqiqat metodu müxtəlif elmlər arasında qarşılıqlı əlaqə, tədqiqat mövzusu haqqında bilik əldə etmək, mövzunun kompleks bilikləri nəzərə alınmaqla, müxtəlif alt sistemlərin qarşılıqlı əlaqəsinin müəyyənləşdirilməsi səylərinə əsaslanan, termodinamik tarazlıqdan uzaq olan açıq sistemlərdə model və quruluşların meydana gəlməsini və özünü təşkil etməsini izah edən elmlərarası bir istiqamətdir. Onun sayəsində ictimai reallıqların sinerjistik anlayışına, insanların idrak və yaradıcılıq fəaliyyətlərinə, təhsilin sinergetikasına, həyatın sinergetikasına keçid edilir. Qeyd etmək istərdim ki, sənət təhsilində məzmununa görə fərqli metodoloji yanaşmaların tətbiqi sənət nəzəriyyəsini lazımi iş alətləri ilə təmin edə bilməz. Təbiət və quruluş baxımından eklektik olan fənlərarası metod, sənət tarixinin digər fənlərin kateqoriyalı aparatında həll olunmasına səbəb olur.

Göründüyü kimi, əsərin tənqidini, başqa sözlə əsl qiymətini isə sənət istehlakçısı və ya alıcısı, yaxud da sənət tarixçiləri və ya sənətşünaslar verir və bunun üçün müxtəlif metod və yanaşmalar mövcuddur. Bu zaman bəlli bir qayda və ardıcıllığa əməl etmək lazımdır. Onlar aşağıdakılardır:

Təsvir. Təsvir mərhələsində əsərdəki ön quruluş elementləri və maddi şeylər deyilən bilgi obyektləri təsvir olunur. Bir sənət əsərinin necə sənət forması olduğu və əsərin görünən səthində nələrin olduğunu müyyənləşdirmə mərhələsidir.

Tənqid. Şəkildə nə var?, Nə görürük?, Bu hansı sənət formasıdır?, Mövzu nədir?, Hansı cizgilər üstünlük təşkil edir? və s. şəklində olan suallara bu mərhələdə cavab verilir.

Təhlil. Təhlil etmək mərhələsi sənət əsərinin var olma tərzinin sənətin prinsipləri ilə əlaqəsini quraraq, müfəssəl bir analiz aparmaqdır. Bu sırada bir sənət əsərinin necə yarandığı ortaya çıxarılır. Buna görə də rəssamların cizgi, rəng və naxışlarla işlədikləri təkrarlar və bunların arasında qurduqları əlaqələr, kompozisiya tərtibatına diqqət yetirmək lazımdır. Belə bir müayinə üçün rənglər necə düzənlənib?, Yer necə qurulub?, İşıq və kölgə münasibətləri necə tənzimlənib?, Əsərdə incəmi və ya ağırmı bir hava dominantlıq təşkil edir?, Hansı texnikalardan istifadə olunub?, Mazoklar, fırçanın zərbələri necə vurulub? kimi suallara cavab verilir.

Şərh etmək. Bir sənət əsərindən anlam çıxarmaq, onu başlı-başına anlamağa yönəlmiş bir sürəcdir ki, xüsusilə də duyğusal bağlar, simvollar, çağdaş və tarixi qavram olaraq şərh etməyi tərif eləmək mümkündür. Burada əsas məsələ təsvir və təhlil bölümünədək detalların əsas götürülməsi ilə fərdi şərhlərlə dəstəklənməsidir. Bu məsələdə insan daha çox yaradıcı səviyyəyə yönəlir və bir əsərdə şəkillənənə qədər, rəssamın zehnindən keçirmiş olduğu məqsədə dair düşünməyə dəvət olunur. Məsələn əgər bir sənət əsərində işıq və kölgə, ritmlərin kəskin ziddiyyəti istifadə olunubsa, burada nə məqsəd güdülmüşdür? şəklində suallara ca-

vab vermək lazım gəlir. Sənət əsərinin mövzusu nədir?, Nə demək istənilib?, Rənglər emosional yöndən necə təsir edir?, Əsərə tamaşa eləmək hansı hissləri doğurur?, Hansı rəngləri və onların çalarlarını görə bilirsiniz?, Rənglər nəyin rəmzi kimi qəbul oluna bilər?.

Mühakimə etmək. Mühakimə şüurlu seçim deyilən bir mərhələdir. Əsərin nədən olduğu, nə üçün gözəl və dəyərli olduğuna dair dəqiq bir mühakimə yürütmək lazımdır. Bir sənət əsərinin və ya hadisənin nə üçün incəsənət olaraq qəbul edildiyini açıqlaya bilmək üçün bəzi qiymətləndirməyə ehtiyac duyulur. Mühakimə professional tənqidçi və mütəxəssislərin səlahiyyətinə daxil olan bir mühakimə yox, bir uşağın zehnindəki seçimetmə anlamlı bir mühakimədir. Bu zaman da aşağıdakı suallara cavab vermək lazımdır. Bu əsərlə özünü inkişafa nail olmaq mümkündürmü?, O əsər barədə nələr hiss edirsən?, O əsərə sahib olmaq istəyirsənmi?, və ən əsası da niyə?

İncəsənət əsərlərinin üslub, janr və icra texnikasının mürəkkəbləşdiyi, qloballaşmanın və cəmiyyətlərin sosioloji quruluşlarında dəyişikliklərin baş verdiyi müasir dünyada incəsənətin ümumi xarakteri dəyişilir. Mətbuatda və bəzi akademik səviyyədə sənət tənqidi və təhlili ilə bağlı yazılanlarla tanış olduqda tənqidin vacibliyinin vurğulanmasına baxmayaraq, sənət əsərini tam mənada başa düşmə, onu yazılı və şifahi dillə çatdırma mövzusunda yetərli qabiliyyətləri görə bilmirik. Tənqid və təhlilə dair suallara cavab vermək üçün sənət əsərlərini anlamağa və ya onları başqalarına izah etməyə çalışanlar sənət əsərlərinin təhlili və tənqidinin strukturunu, onun elementar ardıcıllığını bilməlidirlər.

## Ədəbiyyat sıyahısı:

1. Л.Р.Золотарева. Описание и анализ произведения искусства - эстетико-искусствоведческий и педагогический инструментарий -https://cyberleninka.ru/article/n/opisanie-i-analiz-proizvedeniya-iskusstva-estetiko-iskusstvovedcheskiy-i-pedagogicheskiy-instrumentariy
2. С.Д.Петренко. Анализ произведений изобразительного искусства XX века (к проблеме методологии в педагогическом искусствознании) - http://www.art-education.ru/electronic-journal/analiz-proizvedeniy-izobrazitelnogo-iskusstva-xx-veka-k-probleme-metodologii-
3. E.Daşdağ. Sanat Eseri Eleştrisine Bir Örnek: Üçüncü Mevki Vaqon - https://docplayer.biz.tr/20773174-Sanat-eseri-elestirisine-bir-ornek-ucuncu-mevki-vagon.html
4. O.Hancerlioğlu. Felsefe sözlüğü (5.baskı) İstanbul (1979), səh, 101
5. O.Kırışoğlu, M.Stokrocki. Ortaöğretim Öğretimi. Ankara (1997)
6. V.Özsoy. Görsel Sanatlar Eğitimi (Resim İş Eğitiminin Tarihsel ve Düşünsel Temelleri) (1.basım) Ankara, 2003

**Галиб Гасымов**

**Об анализе и критике художественных работ**

**Резюме**: В современном мире, где стиль, жанр и техника выполнения произведений искусства становятся все сложнее, происходит глобализация и изменение социальных структур общества, также повсеместно меняется общий характер искусства. При ознакомлении с публикациями в прессе и некоторыми академическими работами, связанными с критикой и анализом искусства, несмотря на подчеркивание важности критики, мы не можем усмотреть достаточных способностей в части понимания произведения искусства в полной мере, и объяснения его в письменной и устной форме. Одна из главных причин этого, возможно кроется в отсутствии постоянно обновляющейся среды или платформ для оценки и анализа произведений искусства. Исходя из этой статьи, еще раз стоит подчеркнуть значение написания выступлений и статей, проведения исследований (в частности, на азербайджанском языке) не только в области истории и теории искусства, но и по вопросам критики и анализа, его методов, способов и средств.

**Ключевые слова:** критика, герменевтический, междисциплинарный, толкования, описание, суждение

**Qalib Qasimov**

**About analysis and criticism of art works**

**Summary:** The general nature of art is changing in the contemporary world, where the style, genre and performance techniques of works of art become complicated more and more and changes take place in the globalization and social structures of the society. Although the importance of criticism is emphasized in the media and academic level writings regarding criticism and analysis of art that we identify, we do not see enough ability to fully understand the work of art and express it in written and verbal language. Perhaps one of the main reasons for this is the lack of a constantly updated environment or platforms for evaluating and analyzing works of art. Referring to this article, it is necessary to emphasize the importance of writing speeches and articles, making research (especially in Azerbaijani) on criticism and analysis, its methods, techniques and tools, sequences etc. once again, along with the history and theory of art.

**Key words**: criticism, hermeneutics, interdisciplinary, commentary, description, judgment

**Məqalənin redaksiyaya daxil olma tarixi: 17. 10. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**